***Dos. Naibə Camalzadə. ADU- İngilis və alman dilləri fakültəsinin dekanı.***



***Əziz abituriyentlər!***

Sizi Azərbaycan Dillər Universitetinin İngilis və alman dilləri fakültəsinə dəvət etməkdən böyük məmnunluq hissi keçirirəm. Burada yalnız xarici dil biliklərinizi inkişaf etdirməyəcək, eyni zamanda qlobal dünyada rəqabətqabiliyyətli, bacarıqlı və çağdaş mütəxəssis kimi formalaşacaqsınız. Tədris proqramlarımız Avropa CEFR standartlarına əsaslanır. Biz həm yerli, həm də xarici tələbələrlə qarşılıqlı çalışaraq interaktiv təməlli və real dil mühiti yaradırıq. ADU Orhun, Mevlana, DAAD, ÖSD, Goethe, Böyük Britaniyanın Essex universiteti ilə ikili diplom və digər beynəlxalq mübadilə proqramlarında aktiv iştirak edir. Tələbələrə xaricdə tədris, iş və tədqiqat imkanı verilir. Məqsədiniz yaradıcılıq, peşəkarlıq və dil sahəsində liderlikdirsə, o zaman Azərbaycan Dillər Universitetinin İngilis və alman dilləri fakültəsi sizin üçün ən doğru ünvandır!

**Assoc. Prof. Naiba Jamalzade.**
**AUL - Dean of the Faculty of English and German Languages**

Dear Prospective Students!

It is a great pleasure to invite you to the Faculty of English and German Languages at Azerbaijan University of Languages. Here, you will not only improve your foreign language skills but also shape yourself into a competitive, capable, and modern specialist ready to thrive into the global world. Our programs are based on the European CEFR standards. Through collaboration with both local and international students, we foster an interactive and real-life language learning environment. ADU actively participates in exchange and dual-degree programs such as Orhun, Mevlana, DAAD, ÖSD, Goethe, and with the University of Essex in the UK. These programs give our students the chance to study, intern, or conduct research abroad.

If your goal is creativity, professionalism, and leadership in the field of languages, then the Faculty of English and German Languages at Azerbaijan University of Languages is the perfect destination for you!

Let's open the world of languages together, bring cultures closer, and prepare to become the teachers of tomorrow.

### İxtisaslar

Fakültədə tələbələr aşağıdakı ixtisaslar üzrə hazırlanır:

1. Xarici dil müəllimliyi (ingilis dili)
2. Xarici dil müəllimliyi (alman dili)

### Kafedralar

İngilis və Alman dilləri fakültəsinin tərkibində 4 kafedra fəaliyyət göstərir:

1. İngilis dili leksikologiyası kafedrası
2. İngilis dili fonetikası kafedrası
3. Alman dili leksikologiyası və üslubiyyatı kafedrası
4. Mülki müdafiə və tibbi biliklərin əsasları kafedrası

### Specialties

The faculty trains students in the following specialties:

1. Foreign language teaching (English)
2. Foreign language teaching (German)

### Departments

There are 4 departments operating under the Faculty of English and German Languages:

1. Department of English Lexicology
2. Department of English Phonetics
3. Department of German Lexicology and Stylistics
4. Department of Civil Defense and Fundamentals of Medical Knowledge

### Beynəlxalq Reytinqlər / International Rankings

QS WORLD UNIVERSITY RANKINGS

h-Index

AD Scientific Index

# Azərbaycan Dillər Universiteti İngilis və Alman Dilləri Fakültəsi

# Azerbaijan University of Languages, Faculty of English And German

Müasir dilləri öyrənək və öyrədək!

Let us learn and teach modern languages!






Mən **Abdullayeva Nigar** Rövşən qızı, 2025-ci ildə Azərbaycan Dillər Universitetinin (ADU) Alman dili müəllimliyi ixtisası üzrə məzun olmuşam. Bu universitet mənim üçün sadəcə bir təhsil məkanı deyil, həm də şəxsiyyət kimi formalaşdığım, peşəmə sevgi ilə bağlandığım bir həyat məktəbidir. Təhsil aldığım bu dörd il ərzində qazandığım nəzəri biliklər, pedaqoji bacarıqlar və beynəlxalq təcrübələr – xüsusilə DAAD təqaüdü ilə Almaniyada keçdiyim Sommerschule proqramları – mənə həm geniş dünya baxışı, həm də dərslərimdə istifadə etdiyim real və interaktiv yanaşmaları qazandırdı. ADU mənə təkcə müəllim adını yox, həm də bu peşəyə olan inamı, məsuliyyəti və insani dəyərləri aşıladı. Bu ailənin bir parçası olmaqdan böyük qürur duyuram.

My name is Abdullayeva Nigar, I graduated from the Azerbaijan University of Languages (AUL) in 2025 with a degree in German Language Teaching. This university has not only been an educational institution for me, but also a life school where I shaped my personality and developed a deep love for my profession. Throughout the four years of my studies, the theoretical knowledge, pedagogical skills, and international experiences I gained – especially the Summer School programs I attended in Germany with the DAAD scholarship – provided me with both a broader worldview and real, interactive approaches that I usually apply in my lessons. The Azerbaijan University of Languages instilled not only the title of "teacher" but also the confidence, responsibility, and human values essential for this profession.

***Auditoriya +da əyləncəli dərslər***

***Engaged in extra lessons***










***Orucova Arzu***



Mən Orucova Arzu Rövşən qızı, 2023-cü ildə Azərbaycan Dillər Universitetinin Xarici dil müəllimliyi (ingilis dili üzrə) ixtisası üzrə məzun olmuşam. Hazırda Bakı Dövlət Universiteti nəzdində Gənc İstedadlar Liseyində ingilis dili müəllimi kimi fəaliyyət göstərirəm. ADU mənim üçün yalnız bir təhsil müəssisəsi deyil, həm də şəxsiyyət və peşəkar kimi formalaşdığım bir məktəb olub. ADU mənim üçün yalnız bir təhsil müəssisəsi deyil, həm də şəxsiyyət və peşəkar kimi formalaşdığım bir məktəb olub. Universitetin intellektual mühiti, dəyərli müəllimləri və fədakar tədris sistemi mənə təkcə müəllim olmağı deyil, həm də örnək olmağı öyrətdi. ADU-nun məzunu olmaqdan qürur duyuram.

My name is **Arzu Rovshan Orujova**, and I graduated from the Azerbaijan University of Languages with a degree in English Language Teaching in 2023.
I am currently working as an English teacher at the “Young Talents” Lyceum under Baku State University. For me, the Azerbaijan University of Languages was more than just a higher education institution — it was the school where I grew both as a person and as a professional. The university’s intellectually stimulating environment, its dedicated professors, and its rigorous academic system taught me not only how to be a teacher, but how to lead by example. I take great pride in being a graduate of the Azerbaijan University of Languages.

## Əlaqə üçün / Contact Us

0125642247
iadf@adu.edu.az
Bakı, Təbriz küç., 81
Baku, Azerbaijan Tabriz 81